

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU


AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 iyul 2024-cü il №52 (2863) https://mod.gov.az Qiymətı 30 qəpik


## Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,
Əziz Qardaşım,

15 İyul hadisələrinin səkkizinci ildönümündə dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını qurban vermiş bütün şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edir, ailələrinə və bütün Türkiyə xalqına dərin hüznlə başsağlığı verirəm.

Qardaş Türkiyənin qan yaddaşına əbədi olaraq həkk olunmuş bu gecədə baş vermiş mənfur çevriliş cəhdi ölkənizin milli maraqlarına, demokratik əsaslarına və hüququn aliliyinə qəsd idi. Müdrik və mərd Türkiyə xalqı Vətən, dövlətçilik və demokratiya uğrunda qətiyyətlə mübarizə apararaq və sinəsini sipər edərək növbəti dəfə qəhrəmanlıq dastanı yazdı. Bu hadisələr ilə əlaqədar təsis edilmiş 15 İyul - "Demokratiya və Milli Birlik Günü" mətin xalqınızın həmrəylik, mübarizlik və milli birlik rəmzi olaraq daim yaşayacaq və əsrlər ötdükcə daha böyük qürurla xatırlanacaqdır.

Türkiyə dövlətçiliyinə qarşı yönəlmiş bu çevriliş cəhdinin dəf olunmasında və bununla da ölkənizi böyük faciələrdən xilas edilməsində şəxsən Sizin gördüyünüz təxirəsalınmaz qəti addımların və liderliyinizin xüsusi rolu olmuşdur. Xalqınız Sizin ətrafınızda sıx birləşərək dövlətinə, azadlığına və demokratiyasına sahib çıxmaqla dünyaya milli qürurunu, gücünü və sarsılmaz iradəsini bir daha sübut etdi.

Azərbaycan xalqı və dövləti ilk dəqiqələrdən bu xəyanəti şiddətlə qınamış və həmişə olduğu kimi qardaş Türkiyə dövlətinin və xalqının yanında yer almışdı. Bu bizim sevincimizi və kədərimizi birgə paylaşdığımız Türkiyəyə qardaşlıq və vəfa borcumuz idi.

Hörmətli cənab Prezident, bu yaxınlarda Sizinlə Astanada görüşümüzü, apardığımız ətraflı fikir mübadiləsini ən xoş təəssüratlarla xatırlayıram. Əminəm ki, dostluğa, qarşılıqlı etimad və dəstəyə əsaslanan Azərbaycan-Türkiyə əlaqələrini, çoxşaxəli əməkdaşlığını və strateji müttəfiqliyini genişləndirmək, dünyada bənzəri olmayan dövlətlərarası münasibətlərimizi daha da yüksək səviyyəyə qaldırmaq naminə birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 12 iyul 2024-cü il

## Ulu Öndərin təməlini qoyduğu inkişaf strategiyası uğurla davam etdirilir



***Ötən il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi respublikamızda silsilə tədbirlərin və möhtəşəm layihələrin həyata keçirilməsi ilə yaddaşlarda qaldı, tarixə yazıldı.***

Azərbaycan Ordusunda, müxtəlif dövlət qurumlarında, elm, təhsil, səhiyyə və digər təşkilatlarda, ölkəmizin hər yerində Ulu Öndərin keçdiyi şərəfli ömür və həyat yolu haqqında filmlər nümayiş olundu, müxtəlif elmi konfranslarda məruzələr dinlənildi, çıxışlar edildi.

Məhz Dahi Rəhbərin böyük uzaqgörənliyi, müdrikliyi sayəsində bugünkü müasir Azərbaycanımız quruldu. Ulu Öndər Heydər Əliyevin sayəsində Azərbaycan dünyada tanındı, onun beynəlxalq nüfuzu gündən-günə artdı. Böyük fırtınalardan çıxmış Azərbaycanımızın müstəqilliyini əbədi, dönməz etdi. Ulu Öndərin Azərbaycana rəhbərliyinin hər iki dönəmində respublikamızın hərtərəfli inkişafında mühüm dövlət əhəmiyyətli qərarlar qəbul edilərək, müasir dövlət quruculuğunda tarixi nailiyyətlər əldə olunmuşdur.

Hər kəsə məlumdur ki, XX əsrin 60-cı illərinin axırlarında Azərbaycanın ictimai-siyasi həyatında ən yeni tarixi mərhələnin başlanğıcı oldu. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul Plenumunda Ulu Öndər Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi. Bununla da böyük düha sahibi, görkəmli siyasi xadim Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətinin ilk mərhələsi başladı.

Doğma xalqının böyük təəssübkeşi olan Dahi Rəhbər Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün fəaliyyətə başladığı ilk vaxtdan ölkənin bütün sahələrində geniş islahatlar proqramı həyata keçirdi. Əvəzolunmaz tarixi şəxsiyyət yüksək dövlət idarəçilik bacarığı, dəmir iradəsi, qətiyyətli mövqeyi, müdrik siyasəti ilə Azərbaycanın iqtisadiyyatının, kənd təsərrüfatının, mədəniyyətinin inkişafında böyük uğurlara nail oldu. Qeyd olunan sahələr yüksək templə inkişaf etdirilərək, ölkəmizi nəinki keçmiş Sovetlər İttifaqında, o cümlədən dünyada geniş tanıtdı.

Respublikamızda müasir və mütərəqqi sənaye sahələri yaradıldı. Siyasi əhəmiyyətli tarixi qərarlar qəbul edildi. Ulu Öndər ölkəyə rəhbərliyinin birinci dövründə də ordu quruculuğuna daha böyük diqqət ayıraraq, nə vaxtsa sovet imperiyasının dağılacağına, Vətəni Azərbaycanın azad, müstəqil olacağına inanırdı. Dünya şöhrətli siyasətçi Heydər Əliyev hələ sovet Azərbaycanına rəhbərlik etdiyi dönəmdə hərbi quruculuq məsələlərini önə çəkərək, bu istiqamətdə böyük addımlar atdı.

Sovet məkanında azərbaycanlıların yüksək hərbi vəzifələrə irəli çəkilməsi yolunda süni maneələr yaradıldığı bir vaxtda Ulu Öndərin göstərdiyi polad qətiyyəti, dəmir iradəsi bu gün də qəlbimizi qürur hissi ilə doldurur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1971-ci ilin aprelində gənclərimizin hərbi peşələrə hazırlanması barədə xüsusi sərəncam imzaladı. Elə həmin il iyunun 20-də ordunun kadr hazırlığında əsas baza rolunu oynayacaq ixtisaslaşdırılmış hərbi məktəbin bünövrəsi qoyuldu. Bu məktəbə xalqımızın sərkərdə oğlu general Cəmşid Naxçıvanskinin adı verildi. Təkcə bu faktın özü Ulu Öndərin imperiyanın ən sərt qanunları önündə belə əsl azərbaycançılıq ideyalarına sadiqliyinin əyani nümayişi idi. O vaxt respublika rəhbəri Heydər Əliyevin Sovetlər İttifaqının hərbi məktəblərində təhsil alan azərbaycanlı gənclərin sayının artırılmasına, Azərbaycanın ali hərbi tədris müəssisələrində milli kadrların yerləşdirilməsinə nail olması dahi şəxsiyyətin ölkəmizin gələcəyinə - bugünkü azad, müstəqil dövlətçiliyinə hesablanmış uğurlu addımları idi. Əvəzolunmaz tarixi şəxsiyyət Heydər Əliyev respublikaya rəhbərliyinin ilk vaxtlarında sovet Azərbaycanında yerləşən Xəzər Ali Hərbi Dənizçilik Məktəbini və Bakı Ali Ümumqoşun Komandanlıq Məktəbini ziyarət edir və bu hərbi təhsil ocaqlarında azərbaycanlıların oxumadığını görürdü. Həmişə azərbaycanlı övladlarının ali hərbi təhsil almasına böyük diqqət göstərən Ulu Öndər müdrik və uzaqgörən siyasəti ilə C.Naxçıvanski adına Hərbi Məktəbin yaradılmasına nail olmuşdu. Bu gün müstəqil Azərbaycanın müasir ordusunun zabit heyətinin əsasını məhz C.Naxçıvanski adına Hərbi Liseyin məzunları təşkil edirlər. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin yaratdığı bu məktəbin torpaqlarımızın azadlığı uğrunda canından keçən onlarla şəhid Milli Qəhrəmanı, Vətən Müharibəsi Qəhrəmanı var. Yüzlərlə məzun Azərbaycan dövlətinin müxtəlif orden və medallarına layiq görülüb. Liseyin məzunları arasında müxtəlif qoşun növləri üzrə neçə-neçə general və admiral, yüzlərlə yüksək rütbəli zabit yetişib.

Bütün bunlar Ulu Öndərin ölkəmizin hərbi qüdrətini artırmaq sahəsindəki gərgin zəhmətinin və fədakarlığının, müdrik və uzaqgörən siyasətinin nəticəsidir. Bu gün əldə etdiyimiz bütün qələbələrin, uğurların təməlində Heydər Əliyevin təməlini möhkəm qoyduğu siyasi kurs, inkişaf strategiyası dayanır. Bu siyasi kurs Azərbaycanımızı daha böyük uğurlu gələcəyə aparır, onun işıqlı ideyaları daim yaşayacaqdır. Azərbaycan və Heydər Əliyev adları əsrlər boyu qoşa səslənəcəkdir. Onun nurlu xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Heydər Əliyevin siyasi kursunu - təməlini qoyduğu inkişaf strategiyasını yeni məzmun və keyfiyyətdə uğurla davam etdirir. Son 20 ildən artıq müddətdə dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün sahələrdə yüksək inkişafa nail olub, qüdrətli dövlətə çevrilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışlarının birində fəxrlə bildirirdi: "Mən hər zaman çalışmışam ki, atamın yoluna sadiq olum. 2003-cü ildə ilk dəfə Azərbaycan xalqı mənə etimad göstərəndə seçkilərdən əvvəl mən demişdim ki, əgər siz mənə bu inamı, etimadı göstərsəniz, mən Heydər Əliyev siyasətinə sadiq olacağam, bütün istiqamətlər üzrə onun yolu ilə gedəcəyəm. Şadam ki, sözümə sadiq oldum, sözümü tutdum".

**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri Qazaxıstana səfər edib







Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Qazaxıstan Respublikasının müdafiə naziri general-polkovnik Ruslan Jaksılıkovun dəvəti ilə "Birləşdik-2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimini izləmək üçün qardaş ölkəyə səfər edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Aktau Beynəlxalq hava limanında general-polkovnik Zakir Həsənovu qazaxıstanlı həmkarı general-polkovnik R.Jaksılıkov qarşılayıb.

Hava limanında təşkil edilən rəsmi qarşılanma mərasimində müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Nümunəvi hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Müdafiə naziri səfər çərçivəsində "Birləşdik-2024" təliminin "Oymaşa" təlim poliqonu və Xəzər dənizinin akvatoriyasının Tokmak burnunda icra ediləcək epizodlarını izləyəcək.

# "Birləşdik-2024" təlimində hərbi qulluqçularımız peşəkarlıq nümayiş etdirirlər



"Birləşdik-2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təliminə cəlb edilən Azərbaycan Ordusunun hərbi qulluqçuları yüksək peşəkarlıq nümayiş etdirirlər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana uyğun olaraq, təlim çərçivəsində əməliyyat qrupu tərəfindən qoşunların fəaliyyətləri ilə bağlı verilən tapşırıqlar xəritə üzərində işlənilib.

Azərbaycan Hərbi Hava Qüvvələrinin hərbi qulluqçuları pilotsuz uçuş aparatı vasitəsilə uçuşlar həyata keçirərək, təlimin digər iştirakçı dövlətlərinin PUA bölmələri ilə qarşılıqlı əlaqədə ərazinin hava kəşfiyyatını aparmaqla şərti düşmənin yerüstü hədəflərinin koordinatlarını təyin ediblər.

Təlim meydançasında hücuma keçən Azərbaycan Ordusunun Quru Qoşunlarının hərbi qulluqçuları şərti düşmən qüvvələrinin müqavimətinin qarşısını alaraq onun canlı qüvvəsini və döyüş texnikasını məhv ediblər.

Eyni zamanda, təlimə cəlb edilən komandolarımız qrup şəklində sürətlə şərti düşmənin arxasına sızaraq, mövqeyin ələ keçirilməsi, eləcə də hakim yüksəkliklərin və yolların nəzarət altında saxlanılması üzrə tapşırıqları icra ediblər.

Həmçinin döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı yaralı hərbi qulluqçulara ilkin tibbi yardımın göstərilməsi və onların döyüş meydanından təxliyə olunması həyata keçirilib.

"Birləşdik-2024" beynəlxalq təlimində qarşıya qoyulan bütün tapşırıqlar iştirakçı dövlətlərin hərbi qulluqçuları tərəfindən yüksək peşəkarlıqla icra edilir.

* * *

Qazaxıstan Respublikasının Aktau şəhərində keçirilən "Birləşdik-2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimində Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri döyüş atışlı təlim-məşq uçuşlarını icra ediblər.





Şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırıldıqdan sonra hərbi pilotların sağlamlıq vəziyyəti yoxlanılıb.

Təlimin planına uyğun olaraq, Su-25ML tipli təyyarələrdən müəyyən edilmiş marşrutlar üzrə gündüz və gecə vaxtları uçuşların yerinə yetirilməsi, həmçinin müxtəlif hündürlüklərdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar yerinə yetirilib.

Hərbi pilotlarımız tərəfindən hava kəşfiyyatının aparılması, şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin olunması, onlara zərbələr endirərək, məhv edilməsi üzrə tapşırıqlar müvəffəqiyyətlə icra olunub.

Qeyd edək ki, "Birləşdik-2024" əməliyyat-taktiki komanda-qərargah təlimində hərbi pilotlarımız qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə icra edərək peşəkarlıq nümayiş etdiriblər.

* * *

"Birləşdik-2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimi çərçivəsində "Bağdar" taktiki səmti müəyyənetmə, atıcılıq və bir sıra idman növləri üzrə yarışlar, həmçinin hərbi qulluqçuların mədəni-asudə vaxtının səmərəli təşkili məqsədilə digər tədbirlər təşkil edilib.

Yarışlarda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan respublikalarının hərbi qulluqçuları güclərini sınayıblar.

Yarışların nəticəsinə əsasən qaliblərə kuboklar, medallar, "Fəxri Fərman"lar və hədiyyələr təqdim edilib.

Sonda təlim iştirakçıları üçün konsert proqramı təşkil edilib.

# Azərbaycanın hərbi mütəxəssisləri Qazaxıstanda kibertəhlükəsizlik kursunda olublar



Azərbaycanlı hərbi mütəxəssislər Qazaxıstanda kibertəhlükəsizlik kursunda olub, habelə Astanada Qazaxıstan Respublikasının Milli Müdafiə Universitetində keçirilən mühazirələrdə və görüşlərdə iştirak ediblər.

AZƏRTAC Qazaxıstan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla xəbər verir ki, Qazaxıstan Silahlı Qüvvələri Baş Qərargahının Dövlət Sirlərinin Mühafizəsi İdarəsinin rəisi polkovnik Timur Sadvokasov Azərbaycan Müdafiə Nazirliyi Rabitə İdarəsinin şöbə rəisi polkovnik Adil Nastakalovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Geosiyasi qeyri-sabitlik şəraitində informasiya təhlükəsizliyi məsələlərinin aktuallığını nəzərə alan tərəflər, həmçinin təcrübə mübadiləsinin vacibliyini vurğulayıblar. Onlar bildiriblər ki, belə qarşılıqlı əlaqələr bu sahə üzrə mütəxəssislərin yüksək səviyyədə hazırlanmasına kömək edəcək.



Tədbirlər Qazaxıstan və Azərbaycanın müdafiə nazirlikləri arasında 2024-cü il üçün hərbi əməkdaşlıq Planına uyğun olaraq təşkil edilib.

# Xankəndidə Hərbi Prokurorluğun əməkdaşları Ulu Öndərin xatirəsini anıblar

*Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanda birinci dəfə respublika rəhbərliyinə seçilməsinin 55 illiyi münasibətilə və ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksək rütbəli hərbi qulluqçuları birgə tədbir keçiriblər.*



Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Xankəndidə yerləşən hərbi hissələrdən birində təşkil edilən tədbirdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə general-mayor Bilal Çompuzov, Hərbi prokurorun böyük köməkçisi - Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri baş ədliyyə müşaviri Firad Əliyev, Hərbi prokurorun böyük köməkçisi İsmayıl Əliyev, Tərtər hərbi prokuroru ədliyyə polkovniki Emin Vəliyev və başqaları çıxış edərək Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətləri barədə danışıblar. Onlar Ümummilli Liderin Azərbaycanın parlaq gələcəyinə hesablanan mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizdə həyata keçirilən köklü islahatlar, bütün sahələrdə qazanılan uğurlar, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşdırılması, eləcə də ətraf mühitin daha da sağlamlaşdırılması və etibarlı şəkildə qorunmasından bəhs ediblər.

Tədbirdə ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələbləri, hüquq və vəzifələr, həmçinin ekoloji qanun pozuntuları, ekoloji cinayətlər və məsuliyyət barədə müzakirələr aparılıb. Bundan başqa hüquqi-maarifləndirici məzmunlu çıxışlar olub, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb, eləcə də onların qayğı və problemləri ilə maraqlanılıb.

Sonra prokurorluğun əməkdaşları və nazirliyin hərbi qulluqçuları birgə ağaclar əkiblər.

# Yeni gələn çağırışçıların hərbi hissələrdə qəbulu davam edir

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamının icrası ilə bağlı Azərbaycan Ordusunun təlim hərbi hissələrində gənc əsgərlərin qəbulu prosesi davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi hissələrin qəbul məntəqələrində qeydiyyatdan keçdikdən sonra çağırışçılar tibb məntəqələrində hərbi həkim komissiyası tərəfindən təkrar müayinə olunurlar. Daha sonra mövsümə uyğun hərbi geyim və digər təminat növləri ilə təmin edilirlər.

Şəxsi heyətin yüksək mənəvi-psixoloji hazırlığının, psixoloji dayanıqlığının saxlanılması və təmin edilməsi məqsədilə müvafiq təlimatların tələblərinə uyğun olaraq hər bir gənc əsgərlə fərdi söhbət aparılır və psixoloji testlər keçirilir.

Gənc əsgərlərin hazırlığı proqramına uyğun olaraq, həmçinin təlim hərbi hissələrində çağırışçılarla fərdi hazırlıq məşğələləri təşkil olunur, onlara hərbi xidmətin xüsusiyyətləri, təhlükəsizlik qaydaları, nizamnamələrin tələbləri çatdırılır.

Çağırışçıların uyğunlaşma dövrü və digər faktorlar nəzərə alınmaqla onların əsasən milli xörəklərdən ibarət keyfiyyətli qida, eləcə də yüksək kalorili tərəvəzlə qidalanmaları diqqət mərkəzində saxlanılır.

# Azərbaycanın Milli Qəhrəmanları Polad Həşimov və İlqar Mirzəyevin xatirəsi yad edilib



*İyulun 14-də Azərbaycanın Milli Qəhrəmanları - general-mayor Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin şəhid olmasının dördüncü ildönümü ilə əlaqədar İkinci Fəxri xiyabanda məzarları ziyarət olunub.*

AZƏRTAC xəbər verir ki, ziyarət zamanı Tovuz döyüşlərinin Azərbaycanın hərb tarixinə zəfər döyüşünün başlanğıcı kimi daxil olduğu, həmçinin Azərbaycan Ordusunun düşmənin hər cür təxribatlarının və gözlənilməz hücumlarının qarşısını qətiyyətlə almaqda çətinlik çəkmədiyini bir daha göstərdiyi diqqətə çatdırılıb.

Bildirilib ki, Tovuz döyüşlərində ordumuzun əsgər və yüksək rütbəli zabitləri qəhrəmanlıq, igidlik nümunələri göstərib, erməni işğalçılarının törətdikləri təxribatların qarşısını qətiyyətlə alıblar. Təəssüf ki, həmin döyüşlər zamanı general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev kimi mərd, vətənsevər oğullar şəhidlik zirvəsinə ucalıblar. Lakin onların qanları yerdə qalmayıb, qisasları alınıb. Həmin qəhrəmanların izi ilə gedən gənclər 44 gün ərzində dünya hərb tarixində indiyə qədər qeydə alınmayan salnamələr yazıb, ərazi bütövlüyümüzü bərpa ediblər. Ötən il konstitusiya quruluşumuzun bərpa edilməsindən sonra isə bu şərəfli missiyanın uğurla sona yetdiyi vurğulanıb. Qeyd olunub ki, bu gün xalqımız öz Milli Qəhrəmanlarının xatirələrini alnıaçıq şəkildə anır, onlara minnətdarlıqları ifadə edirlər.



General-mayor Polad Həşimovun həyat yoldaşı Ofeliya Salmanova Milli Qəhrəmanın Azərbaycan Ordusunda və xalqımız qarşısında 25 illik xidməti ilə qəhrəmanlıq, Zəfər simvoluna çevrildiyini bildirərək deyib: "Əslində, o, sağlığında qəhrəmanlıq məktəbi yaratmışdı. Bu, Polad Həşimov məktəbi idi. Həmin məktəbin yetirmələri öz komandirlərindən aldıqları qəhrəmanlıq nümunələrini 44 günlük Vətən müharibəsində döyüş meydanında göstərdikləri misilsiz şücaətlərlə nümayiş etdirdilər və işğal altındakı torpaqlarımızı əsarətdən xilas etdilər. Beləliklə, Polad Həşimov Azərbaycan xalqının qəlbinə əbədi həkk olundu. Xalqı üçün yaşayıb onun üçün canını qurban verən qəhrəmanın xatirəsini qədirbilən xalqımız ən gözəl şəkildə yaşadır. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canını fəda edən hər bir şəhidimizi ehtiramla anır, yaralılara cansağlığı diləyirəm".




Ehtiyatda olan polkovnik-leytenant İlkin Mövsümlü isə Polad Həşimov və İlqar Mirzəyev ilə bağlı xatirələrini bölüşüb. O bildirib: "Polad Həşimovla 1992-ci ildən tanış idim. Keçmiş Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində bir yerdə təhsil almışdıq. Biz bir taqım, bir manqada xidmət edirdik. 1995-ci ildən sonra xidmətlərimizi ayrı-ayrı hərbi hissələrdə davam etdirdik. Ondan sonra 2004-cü ildə yenidən bir araya gəldik və "N" hərbi hissəsində xidmət etdik. Polad kursant olduğu dövrdən xidmətinin son anına qədər öz intizamı, biliyi, xarakteri ilə seçilirdi.

İlqar Mirzəyev isə bizim kurs yoldaşımız idi, lakin ixtisaslarımız fərqli idi. Biz piyada idik, İlqar isə artilleriyaçı. Xidmətdə zabit kimi qarşılaşmasaq da, əlaqələrimiz var idi. Polad Həşimov da, İlqar Mirzəyev də düşmənlə üzbəüz, ön xətdə olan postda xidmət edirdilər. Onlar o qədər vətənpərvər zabitlər idilər ki, geridə deyil, düşmənin bir addımlığında xidmət etməyi özlərinə rəva bilirdilər. Hər ikisi səngər zabiti idi. Biz onlarla hər zaman fəxr edəcəyik. Şəhidlər unudulanda ölürlər. Polad, İlqar kimi oğullar elə iz buraxıblar ki, onlar heç zaman unudulmayacaqlar.

Mən 2010-cu ildən ordu sıralarından təxris olunmuşdum. Polad Həşimovun və İlqar Mirzəyevin şəhidliyi hamımızı silkələdi. Biz son döyüşün başlamasını gözləyirdik. 2020-ci il sentyabrın 27-də düşmənin təxribatlarına qarşılıq olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Mən də sentyabrın 29-da könüllü olaraq döyüşlərə qatıldım və Suqovuşan istiqamətində döyüşdüm. Qürur hissi ilə deyirəm ki, bütün şəhidlərin, o cümlədən Polad Həşimovun da, İlqar Mirzəyevin də qisası alındı".

Xatırladaq ki, ziyarət zamanı, həmçinin Yevlax rayon Vasif Mövsümov adına Gülövşə kənd orta məktəbinin şagirdlərinin ifasında vətənpərvərlik mövzusunda şeir və mahnılar səsləndirilib.

# Bakı Hərbi Kollecində “Məşəl kimi yanan ürək” adlı tədbir keçirilib



*Milli Müdafiə Universitetinin nəzdində fəaliyyət göstərən Bakı Hərbi Kollecinin "Heydər Əliyev muzey-lektoriyası"nda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 55-ci ildönümü münasibətilə "Məşəl kimi yanan ürək" adlı tədbir keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, Milli Müdafiə Universitetinin professor-müəllim heyəti və kursantlar iştirak ediblər.



Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Qonaqlar "Heydər Əliyev muzey-lektoriyası"nda Ulu Öndərin zəngin irsini əks etdirən ekspozisiya ilə tanış olublar.

Çıxış edənlər Ulu Öndər Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçildikdən sonra Azərbaycanın ictimai-siyasi həyatındakı islahatlardan danışıblar. Azərbaycanın qısa müddətdə ittifaqın ən qabaqcıl respublikalarından birinə çevrildiyini vurğulayıblar.



Nəzərə çatdırılıb ki, Heydər Əliyevin 1971-ci ildə böyük uzaqgörənliklə indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratması Azərbaycan Ordusunun zabit kontingentinin formalaşmasında atılan başlıca addımlardan biri olub.

Tədbirdə 1993-cü ilin iyununda Azərbaycan xalqının təkidli tələbi ilə Heydər Əliyevin hakimiyyətə gətirilməsi, müasir Azərbaycan Ordusunun yaranmasında, formalaşmasında, mütəşəkkil qüvvəyə çevrilməsində onun müstəsna xidmətləri yada salınıb, Ulu Öndərin layiqli davamçısı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı şanlı Qələbə xatırlanıb.

Sonda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyatı və siyasi fəaliyyətini əks etdirən qısametrajlı videoçarx nümayiş olunub.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifaları ilə yekunlaşıb.




# “Vətən fədaisi”

*Şəhidlik mənəviyyat zirvəsidir. Bu məqama yüksəlmək, bu zirvəyə çatmaq hər insana nəsib olmur. Buna yalnız seçilmişlər ucalırlar...*

Azərbaycan Hərb Tarixi Muzeyində Azərbaycanın Milli Qəhrəmanı Vüqar Hüseynovun anadan olmasının 55 illiyinə həsr olunmuş "Vətən fədaisi" adlı anım tədbiri keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin idarə və müəssisələrinin hərbi qulluqçuları, Birinci Qarabağ müharibəsi və Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların ailə üzvləri, döyüşlərdə yaralananlar, müharibə veteranları, ictimaiyyətin nümayəndələri iştirak etdilər.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Anım tədbirində Hərb Tarixi Muzeyinin rəisi istefada olan polkovnik Əzizağa Qənizadə "Azərbaycanın Milli Qəhrəmanı Vüqar Hüseynovun həyat və döyüş yolu" adlı məruzə ilə çıxış edərək bildirdi ki, özlərinə əbədiyyət heykəli ucaldaraq, şəhid adını qazanmış igid oğullarımız xalqımızın qəhrəmanlıq tarixində həmişə yaşayacaq və xatırlanacaqlar. "Qarabağ müharibəsində minlərlə gənc Azərbaycanın ərazi bütövlüyü və torpaqlarımızın işğaldan azad olunması uğrunda qəhrəmanlıqla vuruşdu, adını tarixə yazdırdı. Onlardan biri də Azərbaycanın Milli Qəhrəmanı Vüqar Hüseynovdur.

Vüqar Hüseynov 20 iyun 1969-cu ildə Cəbrayıl rayonunun Daşkəsən kəndində dünyaya göz açmışdı. 1976-1986-cı illərdə burada orta məktəbdə təhsil almış, sonra Bakıda 14 saylı texniki-peşə məktəbində elektrik qaynaqçısı ixtisasına yiyələnmişdi. 1987-1989-cu illərdə daxili qoşunlarda xidmət etmişdi. Hərbi xidmət dövründə "çavuş" rütbəsinə layib görülmüşdü. Hərbi xidmətini başa vurduqdan sonra Binəqədi Neft və Qazçıxarma İdarəsində elektrik qaynaqçısı kimi işə düzəlmişdi.

1990-cı ilin əvvəllərində mənfur erməni daşnakları ərazilərimizə basqınlar edəndə Vüqar heç cür rahatlıq tapa bilmirmiş. Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı polis dəstəsinə yazılan cəbrayıllı gənc Xocalı, Goranboy, Çaykənd istiqamətində erməni quldurlarına qarşı rəşadətlə vuruşmuş, döyüş əməliyyatlarında yaxından iştirak etmişdi. Goranboy rayonunun bir sıra kəndlərinin erməni işğalçılarından müdafiə edilməsində qəhrəmanımız böyük şücaət və igidlik göstərmişdi".

Milli Qəhrəman haqqında ətraflı çıxış edən muzey rəisi qeyd etdi ki, şəhid jurnalist Salatın Əsgərovanın qatillərinin tapılmasında da Vüqar Hüseynovun böyük şücaəti olmuşdu. "20 iyul 1991-ci ildə ermənilər böyük qüvvə ilə Goranboy rayonunun Buzluq kəndinə hücuma keçmişdilər. Bu ağır döyüşdə Vüqar Hüseynov döyüş yoldaşları ilə birlikdə neçə-neçə erməni quldurunun məhv olunmasında, ələ keçirilməsində fəal iştirak etmişdi. Bu döyüşdə Vüqar və digər igid Azərbaycan oğullarının misilsiz hünəri sayəsində düşmən geri çəkilməyə məcbur olmuşdu. Ancaq igidliyi, mərdliyi, qorxmazlığı ilə fərqlənən Vüqar Hüseynov döyüş yoldaşları ilə birlikdə düşməni geri oturtmağı bacarsa da, özü düşmən gülləsinə tuş gələrək 21 yaşında ən ali zirvəyə yüksəlmişdi. O, doğulduğu Daşkəsən kənd qəbiristanlığında böyük ehtiramla dəfn olunmuşdu.





Müstəqilliyimiz bərpa olunduqdan sonra Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il Fərmanı ilə Vüqar Tofiq oğlu Hüseynova erməni quldur dəstələrinə qarşı döyüşlərdə göstərdiyi igidliyə görə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdi. 1992-ci ildən təhsil aldığı Cəbrayıl rayonu Daşkəsən kənd orta məktəbi şəhidin adını daşıyır".

Azərbaycanın Milli Qəhrəmanının qardaşı Fuad Hüseynov Vüqar ilə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşdü, eləcə də şəhidlərin xatirəsinin daim uca tutulduğuna və ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə, Birinci vitse-prezidentə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirdi.

Tədbirdə şəhidin döyüş dostları - Rafiq Bayramov, Elmar Hüseynov, İlham Rüstəmov, Tale Naibov, Azərbaycanın Milli Qəhrəmanı Yuri Kovolyovun qızı Regina xanım və başqaları çıxışlarında Milli Qəhrəman Vüqar Hüseynovun şərəfli ömür və döyüş yolundan, birlikdə həyata keçirdikləri əməliyyatlardan, Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Qələbədən, bu Qələbənin tarixi əhəmiyyəti ilə yanaşı, nigaran şəhid ruhlarının rahatlıq tapmasından danışdılar. Qeyd etdilər ki, şəhidlərimizin adları tarixdən heç vaxt silinməyəcək, onların qəhrəmanlıqları unudulmayacaq və xatirələri hər zaman ehtiramla yad ediləcəkdir.

Tədbirdə şəhidə həsr olunmuş sənədli filmin nümayişindən sonra gənc müğənni Aysel Rzayeva vətənpərvərliyi tərənnüm edən mahnılar ifa etdi. Sonda xatirə şəkli çəkildi.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

*Döyüş hazırlığı*

# Zenitçilərin təlim-toplanışı yüksək döyüş hazırlığına köklənib

*Baş leytenant Rəhim Bayramovla məşğələ yerində görüşdük. Bir qədər sarışın olan bu zabitin davranışında zirəklik vardı. Onun bu cür çevik olması həm də məsuliyyətli və bacarıqlı zabit olmasından xəbər verirdi. "Hava hücumundan müdafiə" ixtisası üzrə bilik və bacarıqlara malik olan bu zabiti yuxarı komandanlıq zenit-raket kompleksinin manqa komandirləri ilə planlaşdırılan toplantıya rəhbər təyin edib. Zabit Rəhim Bayramov komandanlığın ona göstərdiyi etimadı doğrultmaq məqsədilə zamanında qazandığı nəzəri biliklərdən və praktiki çalışmalardan məharətlə istifadə edib.*



O, manqa komandirlərinin cəlb olunduğu həmin toplantı ilə bağlı bunları dedi:

- Komandanlığın göstərişinə əsasən, daşınan zenit-raket kompleksinin manqa komandirləri ilə keçirilən toplantının təlim rəhbəriyəm. Məqsədimiz toplantıya cəlb olunmuş kiçik komandirlərin bilik və bacarıqlarını təkmilləşdirməkdir. Həmçinin manqa komandirlərinin döyüş fəaliyyətlərinə hazırlıq dövründə və onun gedişində taqımın silahlarla idarəetmə sistemlərinin təkmilləşdirilməsi, real döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı bölmələrə praktiki rəhbərlik etmək bacarıqlarını artırmaqdır.

Təlim-toplanışa cəlb olunanlara taktiki, hərbi-tibb, mühəndis, topoqrafiya və başqa hazırlıqları keçməklə bu sahədə də nəzəri bilikləri artırmaq kimi qarşılarına mühüm məsələ qoyulub. Məşğələ rəhbəri gizir Ələddin Hüseynov raket qurğusunda növbəti dərsi keçirdi.

Ələddin Hava Hücumundan Müdafiə sistemləri haqqında yetərincə biliyə malik hərbi qulluqçudur. Bu səbəbdən də o, tez-tez keçirilən bu kimi təlim-toplanışlara cəlb olunur. Öyrənənlər arasında keçirilən həm nəzəri, həm də praktiki çalışmaları yüksək səviyyədə mənimsəyən manqa komandirlərinin olduğunu bildirdi. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Fərid Allahverdiyevin təlim-toplanışda bütün hazırlıqlar üzrə yüksək göstəricilər əldə etdiyini qeyd edən gizir Ələdddin Hüseynov digər dinləyicilərin də keçirilən dərsləri yetərincə mənimsədiyini dedi.

Sinif otağında məşğələ zamanı daşınan zenit-raket qurğusu haqqında bilgilər sərgiləyən gizir Ələddin Hüseynov məşğələnin sonunda keçdiyi mövzuya uyğun sualları ətraflı cavablandırdı. Onlar bununla bir daha mövzunu dərindən mənimsədiklərini sübut etdilər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

**ANAMA:** Ötən həftə 397 partlamamış hərbi sursat zərərsizləşdirilib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra edilən minatəmizləmə əməliyyatlarına dair həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, iyulun 7-dən 14-dək Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 79, tank əleyhinə 68 mina və 397 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 1287.4 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

*Təlim*

# Öyrənilmişlərin təkrarı təkmilləşmə deməkdir

Təlim öyrənilmiş hərbi biliklərin təcrübi təkrarı, öyrənmə, təkmilləşmə prosesinin davamıdır. Müdafiə nazirinin təsdiq etdiyi illik plana uyğun olaraq, keçirilən təlimlər öyrənilmişlərin çöl çıxışları ilə möhkəmləndirilməsidir. Təlimlər müəyyən qruplarla toplanışlarda öyrədilmiş biliklərin təcrübə vasitəsi ilə möhkəmləndirilməsi kimi aparılır. Manqa komandirlərinin kurs-toplanışında keçirilən təlimlərin də mahiyyəti belədir.

Quru Qoşunları komandanının müvafiq əmrinə əsasən, hərbi hissələrin manqa komandirlərinin toplanışı təlimlə davam edir. Təlimin rəhbəri polkovnik-leytenant Vüqar Məcidov dedi ki, təlimə cəlb olunmuş manqa komandirləri müxtəlif müddətlərdi xidmət edirlər. Fərq var, fərq təcrübədədi. Bu təlim tədris proqramı vasitəsilə döyüş hazırlığında eyniləşdirmə yaradır. Bu toplanışla müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ordu quruculuğunun yeni dövründə hərbi xidmətdə əsgərlərlə işin, onların döyüş hazırlığını yüksəltməyin yeni təkmil üsul və vasitələrini, müasir döyüş metodlarının xüsusiyyətlərini və s. mənimsəyirlər, mənimsədiklərini qoşunlarda əsgərlərə aşılayacaqlar. Sinif-dərs məşğələləri başa çatıb. İndi çöl təlimləri keçirik.

İkinci Qarabağ müharibəsi müharibə aparmada yeni dövr kimi tarixləşdi. Manqa komandirləri düşmənlə qarşı-qarşıya döyüşün üsullarını da bilirlər, döyüşə-döyüşə özünə necə ilkin döyüş səngəri düzəltməyi də, düşmənin döyüş texnikaları ilə atışmağı da, o texnikaları məhv etmə metodlarını da. Bu kimi təlimlərdə manqa komandirlərinə düşmənin uçuş aparatlarının, bu sıradan dronlarının müxtəlif üsullarla necə vurulması da həm nəzəri, həm də təcrübi yolla öyrədilir. Öyrətmə nəticə etibarilə əsgərlərin öyrədilməsi deməkdi...

Tarixi Zəfərdən sonra yeni qoşun növləri də yaradılmağa başladı. Komando hərbi hissələri də bu qəbildəndir. Əsgərlərin döyüş hazırlığı bu üslubda aparılır. Bu üslub və üsullar manqa komandirlərinə də ətraflı öyrədilməlidir ki, bu proses müntəzəm davam etdirilsin.

Təlimdə düşmən mövqeyinə yaxınlaşmanın müxtəlif üsulları mənimsədilir, manqa komandirləri mənimsənilmişləri məsuliyyətlə icra edirlər. Diqqət yetirirəm: bu üsullar mövqedən asılı olaraq dəyişir, təlimə cəlb olunmuş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları (şərti düşmənin mövqeyinə hücum edən şərti döyüşçülər) müxtəlif məqamlarda müxtəlif formalı düzülüş alırlar, bu düzülüşlə irəliləyirlər; şərti düşmənin mövqeyinin ələ keçirilməsini təcrübi yerinə yetirirlər.

Əl qumbarası atmanın üsullarını da təkrarlayan manqa komandirləri döyüşçünün üstündən keçən düşmən tankının məhv edilməsini də eyni həvəslə yerinə yetirirlər. Əsgər (manqa komandiri) maket-tankın keçəcəyi yolda çaladadır. Tankın maketi onun üstündən keçdiyi anda çaladan dikəlir, tank əleyhinə qumbaranı tankın lüləsinin gövdəsi ilə birləşdiyi yerə atır. Bu atış tankın sıradan çıxarılması deməkdir; "döyüşçü" təklikdə şərti düşmənin döyüş texnikasını məhv etməyi bacarır...

Düşmən tankı görünür. Komandirin əmri ilə hamısı tankı atəşə tutur. Tankın bir qədər də yaxınlaşmasını gözləyirlər. Səngərdən dikəlib tanka tərəf tüstüləyici qumbara atırlar, yaranmış dumanlıqda tanka yaxınlaşırlar. Tankın ekipajı onları görə bilmir. "Döyüşçülər" tankın heyətini təslim olmağa məcbur edirlər. Bunlar məharətlə, peşəkarlıqla, əsl döyüş məsuliyyəti ilə yerinə yetirilir.



Təlimə cəlb olunmuş manqa komandirləri ərazidə səmtləşməni təlim rəhbərinin müdaxiləsi olmadan nəzəriyyə əsasında icra edirlər. Belə icra etmə təsdiqləyir ki, onlar bunu dəfələrlə məşq ediblər, bunun nəticəsi olaraq peşəkarlaşıblar...



Təlim rəhbəri onu da bildirdi ki, təlimə cəlb olunanlar təlim müddətində manqada olan silahlarla atış çalışmalarını da yerinə yetiriblər, taktiki atışları da. Təlim müddətində hər biri fiziki, sıra, atəş hazırlıqları, nəzəri biliklər üzrə məqbullar veriblər. Bu yoxlamalar təsdiqlədi ki, təlimə cəlb olunmuş manqa komandirləri təlim materiallarını yaxşı mənimsəyiblər.

Çavuşlar Elvin Bağırov, Əzim Salayev, Ruslan Bağırov 10 ildən çoxdur hərbi xidmətdədirlər. Əzim Salayev dedi ki, hansı həvəslə, maraqla öyrənmişiksə, biliklərimizi hansı maraqla təkmilləşdirmişiksə, əsgərləri də həmin həvəslə, həmin maraqla öyrədəcəyik. Ordumuzun döyüş hazırlığının yüksəldilməsində biz də iştirak edirik. Bu iştirak bizə hərbi xidmətimiz qədər böyük qürur verir. Əsgər Daşqın Xəlilov dedi: "İki ildi xidmətdəyəm. İxtisasımla bağlı müəyyən nəzəri biliklərə malik idim. Bu təlimdə həm nəzəri biliklərim genişləndi, həm də bildiklərimi təcrübədə yerinə yetirmə ustalığım. Zabitlərə də, təcrübəli təlim yoldaşlarıma da təşəkkürümü bildirirəm". Əsgər Elvin İsgəndərov 6 aydı manqa komandiridir. "Gənc əsgər hazırlığı kursunu bitirəndə hansı sevinci yaşamışdımsa, bu təlimin sonlarında da eyni sevinci yaşayıram. Hərbçi, manqa komandiri olmağımla qürur duyuram".

Təlimdə fasilə elan olundu. Bu fasilə manqa komandirlərinin yoldaşlıq duyğularının mehrinə dönəcək. Onlar da bilirlər ki, öyrənilmişlərin təkrarı təkmilləşmə deməkdir...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**



*Milli Qəhrəmanlarımız*

# Vətən sevgisi əvəzsizdir

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə şəhər və rayonlarımızda torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə igidlik, şücaət göstərən Milli Qəhrəmanların xatirəsinə həsr olunan tədbirlərin keçirilməsinə xüsusi diqqət yetirilir. Əsas məqsəd yeniyetmələrə və gənclərə Vətənə, xalqa məhəbbət, sevgi hisslərini aşılamaq, onların mərd və mübariz vətəndaşlar kimi formalaşmalarına hərtərəfli kömək etməkdir.

Növbəti belə tədbir Goranboy rayonunun Ağcakənd qəsəbəsində yerləşən 5 saylı Xocalı şəhər tam orta məktəbində Xocalı Təhsil Sektoru ilə birgə təşkil olundu. Tədbir iştirakçıları Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.



Xalqımızın qəhrəmanlıq tarixindən geniş söhbət açan mərkəzin əməkdaşları bildirdilər ki, min illər yaşı olan qəhrəmanlıq ənənələri həmişə igid oğullarımız tərəfindən davam etdirilib.

XX əsrin sonlarından başlanan hadisələr göstərdi ki, torpaqlarımızı müdafiə etməyə hazır olan, lazım gəldikdə Vətən uğrunda canlarını fəda etməyə qadir olan yüzlərlə, minlərlə qəhrəman oğul var. Onlar heç vaxt Vətən torpaqlarının işğalda qalmasına yol verməyəcəklərini dəfələrlə bildirməklə, silahdaşlarını da bu yolda qətiyyətli mübarizəyə səsləmişlər. Belə cəsur oğullardan biri də Azərbaycanın Milli Qəhrəmanı Natiq İlyas oğlu Əhmədovdur.

Natiq Əhmədov 1969-cu ildə Xocalı rayonunun Kosalar kəndində anadan olub. Sonra ailəsi Ağdam rayonunun Novruzlu kəndində məskunlaşıb. Natiq orta təhsilini Novruzlu kənd məktəbində alıb. Vətənpərvər, çalışqan, intizamlı şagird kimi tanınan Natiq idmana daha çox maraq göstərərək, bir çox yarışlarda da uğurlar qazanmış, təhsil aldığı orta məktəbin idman şərəfini həmişə qorumuşdur. Keçmiş sovet ordusunda hərbi xidmətini Kalininqrad şəhərində keçmişdir. Artilleriya hərbi hissəsində xidmət edən Natiq nümunəvi əsgər kimi tanınmış, təlimlərdə həmişə yüksək nəticələrə nail olmuşdur.



Hərbi xidmətdən sonra Natiq Xocalı rayon Polis şöbəsinin Yol Patrul xidmətinə işə qəbul edilib. Həmin vaxtlar artıq düşmən qüvvələri Qarabağın Ermənistana birləşdirilməsi iddiasına düşmüşdülər. Hər yerdə böyük təhlükələr, təhdidlər yaradılırdı. Mənfur düşmən soydaşlarımıza qarşı hücumlar təşkil edir, dinc əhalini ata-baba yurdlarından qovurdu. Kənd və qəsəbələrlə əlaqələr kəsilirdi. Ermənilər yol boyu pusqular qurur, terror hadisələri törədirdilər. Natiq və silahdaşları soydaşlarımızın təhlükəsizliyi üçün əllərindən gələni edirdilər. Ağdam, Şuşa marşrutu ilə işləyən sərnişin avtobuslarını mühafizə edərkən dəfələrlə ölümlə üz-üzə qalan Natiq soydaşlarımızı düşmən hücumlarından qoruya bilmişdi.

26 sentyabr 1991-ci ildə Əsgərandan Xocalıya işə gedərkən görürlər ki, ermənilər pusquya saldıqları sərnişin avtobusunu ələ keçirmək istəyirlər. Natiq və silahdaşları əhalini xilas etmək üçün erməni yaraqlılarına qarşı döyüşə atılırlar. Natiq döyüş zamanı soydaşlarımızı xilas etsə də, özü qəhrəmanlıqla şəhid olur. 8 noyabr 1992-ci ildə ona ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilir. Vətənini, xalqını böyük məhəbbətlə sevən Natiqin xatirəsi heç vaxt unudulmur, həmişə ehtiramla yad olunur.

Məktəbin direktoru Mətanət Zamanova çıxış edərək bildirdi ki, qəhrəmanlar heç vaxt unudulmur, əbədi yaşamaq haqqı qazanırlar. "Böyük şairimiz Səməd Vurğunun müdrik misralarını yada salmaq istəyirəm:

*Günəşi örtsə də, qara buludlar,*
*Yenə günəş adlı bir qüdrəti var.*

Bu mənada qəhrəmanlar əbədi yaşamaq haqqı qazanaraq Vətənin, xalqın şanlı qəhrəmanlıq tarixinin səhifələrini yazanlardır. Natiq İlyas oğlu Əhmədov da adını tarixə yazan qəhrəman oğullardan biridir. İstər Birinci Qarabağ müharibəsi, istərsə də İkinci Qarabağ müharibəsi bir daha göstərdi ki, Azərbaycan xalqı öz ata-baba torpaqlarının azadlığı, suverenliyi uğrunda hər zaman mübarizə aparıb. Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasətlə və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyəvi dövlətə çevrildi. Azərbaycanın iqtisadi-siyasi, hərbi qüdrəti inkişaf etdirilərək daha böyük uğurlara imza atıldı. Ölkəmiz regionun lider dövləti kimi tanındı. 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə şanlı ordumuz tarixi Zəfər qazandı. 2023-cü ilin sentyabrında keçirilən antiterror tədbirlərindən sonra ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin olundu. Bu böyük tarixi günləri bizə bəxş edən şanlı ordumuz və Müzəffər Ali Baş Komandanla həmişə qürur hissi keçiririk".



Vətən müharibəsi iştirakçıları, veteranlar çıxış edərək, 44 günlük Vətən müharibəsində ordumuzun qazandığı tarixi qələbədən, Vətən sevgisinin qüdrətindən ətraflı bəhs etdilər.

Tədbirdə çıxış edənlər ölkəmizdə həyata keçirilən, cəmiyyətin həssas təbəqələrini əhatə edən sosial siyasətin əsasının da Ulu Öndər tərəfindən qoyulduğunu söylədilər. Bu siyasətin Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla həyata keçirildiyini diqqətə çatdırdılar. Şəhid ailələrinin üzvləri, döyüşlərdə yaralananlar onlara göstərilən diqqət və qayğıya görə dövlət rəhbərliyinə minnətdarlıqlarını ifadə etdilər.

Mərkəzin əməkdaşları "Əsgərə məktub" layihəsi haqqında da məlumat verdilər. Tədbir iştirakçıları Vətənin keşiyində dayanan əsgərlərə qürur dolu məktublar ünvanladılar.

Sonda Milli Qəhrəmana həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirildi.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Vətən qəhrəmanları ilə tanınar

Günəşin ilk şüaları Xocalı şəhərinin üzərinə düşəndə, təbiət yeni bir günə oyanırdı. Bu məsum şəhərin sakit küçələrində, 1 iyun 1960-cı ildə bir igid dünyaya göz açdı. Adını Araz qoydular. Onun adı illər sonra Azərbaycanın qəhrəmanlıq tarixində əbədi olaraq qalacaq, Vətəninə olan sevgisi və fədakarlığı ilə hər bir azərbaycanlının ürəyində iz buraxacaqdı. Araz Səlimovun həyatı, mübarizəsi və şəhidliyi onun adını gələcək nəsillərə ötürəcək bir dastana çevrildi.

Azərbaycanın Milli Qəhrəmanı Araz Səlimov 1975-ci ildə Xocalı şəhərində orta məktəbin səkkizinci sinfini bitirdikdən sonra, texniki-peşə məktəbində traktorçu peşəsinə yiyələnib. Bir müddət kolxozda çalışaraq, zəhmətkeş bir gənc olaraq yetişib. 1978-ci ildə Sovet Ordusu sıralarına çağırılan Araz xidmətini Çelyabinsk vilayətində keçib. 1980-ci ildə ordudan tərxis olunaraq, doğma yurdu Xocalıya qayıdıb və burada südçülük-tərəvəzçilik sovxozunda traktorçu olaraq işə başlayıb.

1988-ci ildən başlayaraq ermənilərin millətçilik və işğalçılıq siyasəti geniş vüsət almağa başladı. Başlayan qanlı müharibə, Azərbaycanın hər bir igid oğlunu olduğu kimi, Araz Səlimovu da silah götürməyə vadar etdi. 1990-cı ildə könüllü olaraq Xocalı özünümüdafiə batalyonuna yazılan Araz ilk gündən öz cəsarəti ilə seçilməyə başladı. Bir pulemyotçu kimi Xocalı faciəsi zamanı erməni təxribatçılarına qarşı son gülləsinə qədər vuruşdu. Onlarla qız-gəlini, qoca və uşaqları erməni quldurlarının cayNağından qurtararaq, əsl qəhrəmanlıq nümunəsi göstərdi. 1992-ci il fevralın 26-da bir daha sübut olundu ki, erməni quldurları ən ağır cinayətlərə əl atmaqdan belə çəkinmirlər.



Xocalıda törədilən soyqırımı tarixin ən dəhşətli faciələrindən biridir. Bəzi faktları olduğu kimi sadalayaq: Xocalı soyqırımında 63 uşaq, 100-dən çox qadın, 76 qoca, bir sözlə, 613 Xocalı sakini qətlə yetirilib. Yaşayan bir şəhəri Yer üzündən silmək ermənilərin başlıca məqsədi olub. Bütün bunları vaxtında, vədəsində dünyaya çatdıra bilməsək də, o vaxtdan bəri çox işlər görülüb. Ermənilərin belə vəhşiliklərindən xəbəri olan Araz Səlimov dinc əhaliyə kömək etmək üçün yorulmaq bilmirdi. Sonuncu dəfə Əsgərandan geriyə dönəndə düşmən mühasirəsinə düşdü. Onda qardaşı Fəxrəddinlə atası Bahadur kişi də yanında idi. Çətin vəziyyətdə qalmışdılar. Amma Araz son nəfəsinə qədər düşmənə asanlıqla təslim olmadı. Deyirlər ki, düşmən onu ələ keçirmək üçün bütün vasitələrdən istifadə edirdi. Ona görə ki, Arazın iştirak etdiyi əməliyyatlarda düşmən xeyli itki vermişdi.

Lakin erməni faşistləri onun izinə düşərək, qardaşı Fəxrəddinlə birlikdə onu Əsgəranda vəhşicəsinə qətlə yetirdilər. Xocalı faciəsi zamanı bu ailədən üç nəfər - ata və iki oğul şəhid oldu.

Evli və iki uşaq atası olan Araz Səlimova Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə 1997-ci il fevralın 25-də ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. O, Ağdam şəhərinin Şəhidlər xiyabanında dəfn edilib.

Araz Səlimovun həyat yolu, Vətənə olan sevgisi və fədakarlığı hər birimiz üçün örnəkdir. O, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canını qurban vermişdir. Onun xatirəsi hər zaman qəlbimizdə yaşayacaqdır. Onun qəhrəmanlıq dolu həyatı və igidliyi, gələcək nəsillərə ilham mənbəyi olacaqdır. Araz Səlimovun adı, Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb və əbədi olaraq yaddaşlarda yaşayacaqdır.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# Adı əbədiləşən igid şəhidimiz



27 sentyabr 2020-ci il tarixində düşmən növbəti təxribatlara əl atdı. İllərlə səbir etdiyimizi düşünən mənfurlar bu dəfə də belə yanaşacağımızı düşündülər. Lakin bu təxribatın səbrimizin son damlası olduğunu heç xəyallarından belə keçirmirdilər. 27 sentyabr tarixində onların həyata keçirdikləri genişmiqyaslı təxribatların qarşısını almaq məqsədilə Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başladı. Bu əməliyyatlarda əsgər Bayram Qasımov da iştirak etdi.

Bayram Qasımov 2002-ci ildə Gədəbəy rayonunun Çiçəkli kəndində anadan olub. Çiçəkli kənd tam orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb. Gənc əsgər kimi hərbi hissələrin birində xidmət edib. Bir müddət sonra Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissəsində xidmətini davam etdirib. Əsgəri xidmətini xüsusi təyinatlı kimi başa vurduqdan sonra uşaqlıq arzusunu həyata keçirdi. O, Azərbaycan Ordusunun hərbçisi oldu.

Haqq savaşımızın başladığı ilk andan etibarən silahdaşları ilə birlikdə işğalçılardan qisasımızı almağa başlayıb. Onun mərdliyi, şücaəti, igidliyi sayəsində düşmən ordusu xeyli sayda itki vermək məcburiyyətində qalıb. Bölmələrimiz bir çox əraziləri düşmən işğalından azad edərək, irəliləyiblər. Kəlbəcər rayonu istiqamətində gedən döyüşlər zamanı igidlik nümayiş etdirərək, qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən asanlıqla gəlib. Bir neçə gündən sonra rəhbərliyin tapşırığına əsasən, Bayram döyüşləri davam etdirmək üçün Cəbrayıl rayonu istiqamətinə yollanıb. Burada da o komandirlərinin verdiyi bütün çətin döyüş əməliyyatı tapşırıqlarını məharətlə icra edib. Bir an belə durmadan irəliləyən cəsur oğullarımız artıq ərazilərimizin xeyli hissəsini erməni silahlı birləşmələrindən təmizləmişdilər. Oktyabrın 4-də Bayram Cəbrayıl rayonu istiqamətində gedən ağır döyüşlər zamanı snayper gülləsinə tuş gələrək şəhidlik zirvəsinə yüksəlib. Məğrur hərbçilərimiz cəmi 44 gün ərzində tarixi torpaqlarımızı azad edib, Bayram kimi torpaq uğrunda şəhid olan soydaşlarımızın qisasını aldılar.

Belə cəsur Azərbaycan övladının ailəsi ilə tanış olmaq üçün Gədəbəy rayonuna yollandıq. Uzun yolları geridə qoyub, şəhid Bayramın yaşadığı ünvana çatdıq. Diqqətimizi çəkən ilk məqam evin önündə yaradılan guşə oldu. Burada şəhidimizin uşaqlığını, gəncliyini, döyüş yolunu əks etdirən foto-stendlər var idi. Bu mənzərəni seyr edərkən yalnız bir söz deyə bildik: "Vətən sağ olsun".

Şəhidimizin atası Arzu İbrahimovla görüşüb, evə daxil olduq. Bayramın otağına girəndə onun həyatı kino lenti kimi gözümüzün önündən keçdi. Çünki divarın hər bir yerində onu xatırladan foto şəkilləri asılmışdı. Çox təsiredici mənzərə idi. Atası ilə söhbətə başladıqda bildirdi ki, Bayram gənc yaşlarından əsl kəşfiyyatçı kimi böyüyürdü. Uşaqlıqdan heç nədən qorxan olmayıb. Arxamızda olan meşəyə günün istənilən vaxtında gedə bilərdi. Hətta dəfələrlə olub ki, meşədə və yaxud hər hansısa bir yerdə ilan gördüyü zaman onu əlləri ilə tutub, insanlardan uzaq olan yerə qoyurdu. Qorxmazlıqdan da əlavə bacarıqlı uşaq olub. Onun tərbiyəsi, mərifəti, qanacağı və vətənpərvərliyi bütün kəndə məlumdur. Xidmətə başlamazdan öncə dəfələrlə hərbçi olmağı və gələcək döyüşlərdə düşməndən şəhidlərimizin qisasını almağı düşünürdü. Xüsusi Təyinatlı Qüvvələrdə əsgəri xidmətini başa vurduqdan sonra orada müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirdi. Çox çəkmədi ki, Vətən müharibəsi başladı. Silahdaşları isə döyüşlər zamanı onun göstərdiyi igidliklərdən və qorxmazlığından danışırdılar.

Şəhidin anası Qəşəng İbrahimova oğlunun həyatından danışdı. Bildirdi ki, Bayram uşaqlığından həmişə sakit olub. Heç bir zaman uşaqlar çox olan yerdə olmazdı. Təkliyi sevərdi. Dəfələrlə meşəyə gedərdi. Oranın təhlükəli olduğunu ona deyirdim, lakin mənə narahat olmamağı deyirdi. Günlərin bir günü o meşədən gələndə mənə dedi ki, ana, mən bu gün tanımadığım bitkilərin dadına baxmışam. Niyə belə etdiyini soruşdum. O isə bildirdi ki, ana, gələcəkdə elə bir şərait ola bilər ki, ətrafımızda heçnə olmasın. Bu zaman isə biz həyatda qalmağı özümüz bacarmalıyıq".

- Günlərin bir günü həyətdə iş görürdüm. Bir anlıq oğlumun məzuniyyətə gələcəyini arzuladım. Çox çəkmədi ki, qapı açıldı və Bayram içəri daxil oldu. Düzünü desəm, heç tanımadım. Tamamilə dəyişilmişdi. Böyüyüb daha cüssəli olmuşdu. Bir anlıq duruxub gözlərinə baxdım. Bayram isə "ana, mənəm, oğlun" sözlərini dedi. Tez qaçıb boynuna sarıldım. Onun məzuniyyət dövrü sanki bir anda keçdi. Atası xaricdə işlədiyi üçün yenidən xidmətə yollananda onu buraxmaq istəmirdim. Xidmətdə olduğu zaman bir yuxu gördüm. Gördüm




ki, qapımız açıldı və böyük qırmızı rəngli maşın daxil oldu. Mən də evdən gördüm ki, uniformalı iki nəfər maşından düşərək, Qasımov Bayramın burada qaldığını soruşdular. Bu an çox qorxdum və qorxu içində ayıldım. Sakitləşə bilmirdim. Çünki gördüyüm yuxu gözlərimin önündən getmirdi. Növbəti gün yenidən bu yuxunu gördüm. Gördüm ki, həyətdə iş görürəm və yenidən bu qırmızı maşın içindəki uniformalı iki nəfərlə yenidən qapımıza gəldi və pis xəbəri bizə dedi. Bu zaman sanki belim qırıldı. Bilmədim nə edim. Ağlamağıma məni evdəkilər yuxudan oyatdılar. İkinci dəfə bu yuxunu görməyim artıq məni tamamilə narahat etdi. Günlərlə özümə gələ bilmirdim. Sanki ruh kimi gəzirdim. Kim nə edirdi, kim nə deyirdi, bilmirdim. Fikrim o yuxuda və oğlumun yanında idi. Bir neçə gün keçdikdən sonra yenidən yuxu gördüm. Bu dəfə gördüm ki, balaca oğlum yatır. Anidən isə başını çarpayıdan qaldıraraq dedi ki, ana, qardaşım ölüb. Bu da artıq məni tamamilə məhv etdi. Növbəti gün oğlum bizə zəng etdi. Səsini eşidəndə çox sevindim. Sanki çiynimdən bir yük düşdü. Dəfələrlə onun səhhəti və xidməti haqqında ağlayaraq soruşdum. O da hər şeyin qaydasında olduğunu və niyə belə həyəcanlı olduğumu soruşdu. Lakin ona deyə bilməzdim gördüklərimi. Müharibə başladığı gündən etibarən demək olar ki, hər gün Bayramı yuxumda görürdüm. Sonuncusu isə onun şəhid olduğu günün gecəsi idi. Gördüm ki, Birinci Qarabağ döyüşlərinin şəhidi əmim oğlu Şəyavuş Qasımov ilə görüşdürdüm və dedim ki, ay Şəyavuş, Bayramla birlikdə ermənilərin qarşısını alın və onların hamısını məhv edin. Səhər isə oğlumun şəhid xəbərini aldım. Düzdür, hər kəsin bir taleyi və qisməti vardır. Oğlum şəhid oldu. Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

Qardaşı Ayaz İbrahimli isə Bayramı hər zaman sevəcəyini və onunla fəxr etdiyini dedi. "Mənim qardaşım igid, cəsur əsgər olub. Çünki o, düşmənlərimizi məhv edərək, torpaqlarımızı işğaldan azad edənlərin sırasında olub. Qürur duyuram ki, mən şəhid Bayram Qasımovun qardaşıyam".

Qeyd edək ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında başlayan və cəmi 44 gün davam edən Vətən müharibəsi zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edib, qarşıya qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Qasımov Bayram Arzu oğlu "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə xaricə qaçmağa cəhd edən 10 FETÖ üzvü saxlanılıb



Türkiyənin İzmir vilayətinin Çeşmə rayonu ərazisinin Alaçatı körfəzində həyata keçirilən "Kısqac-21" əməliyyatı nəticəsində qanunsuz yollarla xaricə qaçmağa cəhd edən 10 FETÖ üzvü saxlanılıb.

Bu barədə Türkiyənin daxili işlər naziri Ali Yerlikaya bildirib.

Nazirin sözlərinə görə, terrorçular "Asteri" adlı qayıqda ələ keçiriliblər.

Əməliyyat Türkiyənin Sahil Mühafizə Xidmətinin Egey Dənizi Regional Komandanlığı, Milli Kəşfiyyat Təşkilatının (MİT) İzmir bölgəsi üzrə baş idarəsi və İzmir Jandarma Komandanlığının koordinasiyasında həyata keçirilib.

## Hindistan Ermənistana "SSS Defence" şirkətinin snayper tüfənglərini satır



Hindistan Ermənistanı silahlandırmaqda davam edir. Əvvəllər Ermənistana raket kompleksləri, hava hücumundan müdafiə sistemi və pilotsuz uçuş aparatları satan Hindistan indi isə snayper tüfəngləri satmağı planlaşdırır. Artıq Hindistanın "SSS Defence" şirkəti özünün istehsal etdiyi snayper tüfənglərinin Ermənistana satışı ilə bağlı müqavilə imzalayıb.

Bu barədə "Indian Defence" məlumat yayıb.

Bildirilir ki, rəsmi Dehli ilk dəfədir ki, tamamilə Hindistanda dizayn edilmiş və istehsal edilmiş snayper tüfənglərini xarici ölkəyə ixrac edir.

## İspaniya Ukraynaya 10 Leopard tankı göndərib



İspaniya hakimiyyəti Ukraynaya daha 10 ədəd Leopard tankı göndərib.

Bu barədə İspaniya Müdafiə Nazirliyinin bəyanatında deyilir.

"Hərtərəfli təmir prosesi başa çatdıqdan sonra 10 Leopard 2A4 tankının Ukraynaya multimodal daşınmasına başlanılıb", - deyə nazirlikdən bildiriblər. Tankların həftə sonunadək Polşa limanına çatması, daha sonra isə Ukrayna Silahlı Qüvvələrinə təhvil veriləcəyi gözlənilir.

Beləliklə, Madrid artıq Kiyevə 20 Leopard döyüş maşını göndərib. Tankların daha bir partiyası 2024-cü ilin ikinci yarısında Ukraynaya verilə bilər.

## Ermənistan-ABŞ birgə təlimlərinə start verilib



Ermənistan-ABŞ birgə təlimlərinə start verilib.

Bu barədə Ermənistan Müdafiə Nazirliyi məlumat yayıb.

Təlimlərdə Ermənistan silahlı qüvvələrinin, ABŞ Quru Qoşunlarının Avropa və Afrikadakı birliklərinin və Kansas Milli Qvardiyasının hərbçiləri iştirak edirlər.

Birgə təlimin məqsədi beynəlxalq sülhməramlı missiyalarda iştirak edən bölmələr arasında koordinasiyanın səviyyəsinin yüksəldilməsi, idarəetmə və kommunikasiya sahəsində təcrübə mübadiləsi, o cümlədən Ermənistan hərbçilərinin döyüş hazırlığının artırılmasıdır.

**AZƏRTAC-ın materialları əsasında**

# “Əsgər mahnısı” festivalına start verildi






Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin təşkilatçılığı ilə Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən Vətənimizin tarixinə qızıl hərflərlə yazılmış, tarixi həqiqətləri bərpa edən 44 günlük Vətən müharibəsində qazanılan Zəfər gününə həsr olunmuş "Əsgər mahnısı" musiqi festivalı keçirilir. Festivalda Azərbaycan Ordusunun hərbi qulluqçuları, onların ailə üzvləri, müharibə veteranları, döyüşlərdə yaralananlar və şəhid ailə üzvləri iştirak edirlər.

Festivalın keçirilməsində əsas məqsəd qədim və zənginliyi ilə seçilən milli mədəniyyətimizin və incəsənətimizin, hərbi ənənələrin, hərbi xidmətdə olan gənclərin vətənpərvərlik ruhunda tərbiyələndirilməsinin təbliğinin genişləndirilməsidir. Festivala cəlb olunan istedadlı gənclərin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi, hərbi hissələrdə bədii özfəaliyyət kollektivlərinin yaradılmasına hərtərəfli kömək göstərilməsi əsas məqsəd daşıyır. Hərbi qulluqçuların asudə vaxtlarının səmərəli keçirilməsində onlara Vətən Müharibəsi Qəhrəmanlarının geniş miqyasda tanıdılması, ordu ilə xalq birliyinin daha da möhkəmləndirilməsi istiqamətində fəaliyyətini artırmaqdır.



Musiqi festivalına qeydiyyat iyunun 12-dən avqustun 1-dək aparılacaq, seçim turları keçiriləcək. Daha çox bal toplayanlar yarımfinal konsertində iştirak etmək hüququ qazanacaqlar. Final konsertində isə daha çox fərqlənən istedadlı gənclər və yüksək bal toplayanlar çıxış edəcəklər.

Əsas nominasiya olan "Əsgər mahnısı" festivalında iştirak etmək üçün lokal, hərbi vətənpərvərlik mövzusunda mahnı, muğam, müxtəlif musiqi alətlərinin ifaçıları iştirak edə bilərlər. Əlavə nominasiyalarda milli rəqs, müasir idman üslubunda rəqslər, zərb, simli, nəfəsli və digər alətlərdə ifa bacarıqlarını nümayiş etdirə bilərlər.

İştirakçıların seçimi professional münsiflər heyəti tərəfindən aparılacaq. "Əsgər mahnısı" festivalında qaliblərə diplom və qiymətli hədiyyələr nominasiyalar üzrə təqdim olunacaq.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

*Maraq dünyamız*

# “Əjdaha qanı” ağacı



"Əjdaha qanı" ağacı (latınca Dracaena Cinnabari) Yəməndəki Sokotra adasına xas bir ağac növüdür. Demək olar ki, adanın hər bir yerində əsasən, dəniz səviyyəsindən 500-1500 metr yüksəklikdə yetişir.

Ağacın qabığı zədələndikdə qırmızı rəngli, qana bənzər maye ifraz olur. Təbii ki, bu həqiqi qan deyil. Kəsilmiş və ya zədələnmiş hissəni bərpa etmək üçün ifraz olunan qırmızı qətrandır.

Qədim Hind əfsanəsinə görə, Sokotra adasında qaniçən bir əjdaha yaşayıb və bu əjdaha fillərə hücum edərək qanlarını içib. Bir gün əjdahanın öldürmək istədiyi nəhəng bir fil onun üzərinə yıxılır və əzərək öldürür. Əjdahanın qanı torpağa yayılır və bu torpaqlarda "Əjdaha qanı" ağacı bitir.

Ağacın ərəbcə adı "dam əl-əhavein"dir (iki qardaşın qanı). Bu ad iki qardaş arasındakı mübarizənin əfsanəsi ilə əlaqələndirilir.

"Əjdaha qanı" ağacının hündürlüyü 8-10 metrdir. Bu həmişəyaşıl ağacın sıx "tacı" açılmış çətirə bənzəyir. Əsasən həmişəyaşıl meşələrdə, əhəngdaşlı torpaqlarda, yağışlı və çiskinli yerlərdə yetişir.

Dağ zirvələrində yetişən ağacın qeyri-adi forması ona quraqlıq iqlim şəraitində yaşamağa imkan verir. Böyük və sıx "çətiri" onu kölgə ilə təmin edir və nəmin buxarlanmasını azaldır. Bu kölgə yetkin ağacın altında bitən fidanların sağ qalmasına kömək edir.

Fevral ayında "Əjdaha qanı" ağacı çiçəkləməyə başlayır, baxmayaraq ki, çiçəkləmə müddəti ağacın böyüdüyü yerdən asılı olaraq dəyişə bilir. Meyvələri kiçik və ətlidir, birdən üçə qədər toxumu olur. Yetişdikcə əvvəlcə yaşıl, sonra qara, daha sonra isə narıncı rəngə çevrilir. Giləmeyvəsini quşlar və heyvanlar yeyir, bununla da toxumlar yayılır.

"Əjdaha qanı" ağacı 600 il yaşaya bilir.

**"Azərbaycan Ordusu"**





# İdman

## İspaniya millisi tarixində dördüncü dəfə Avropa çempionu olub



Almaniyada keçirilən Avropa çempionatının finalında üz-üzə gələn İspaniya və İngiltərə yığmaları arasında oyun baş tutub.

Final qarşılaşması İspaniya millisinin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.

İspaniyanın heyətində İnaki Vilyams və Miker Oyarzabal fərqləniblər. İngiltərə seçməsinin yeganə qolunu isə Kold Palmer vurub.

Bununla da ispanlar tarixdə dördüncü dəfə Avropa çempionu olublar.

## Azərbaycanın qızlardan ibarət basketbol yığması ardıcıl ikinci dəfə Avropa çempionu olub



Azərbaycanın 16 yaşadək qızlardan ibarət yığması Avropa çempionatının C divizionunda final oyununa çıxıb.

Milli komanda Cəbəllütariqdə keçirilən matçda Kipr yığması ilə üz-üzə gəlib.

Qarşılaşmanın əvvəlindən üstünlüyü ələ keçirən Azərbaycan seçməsi rəqib üzərində 69:52 hesablı qələbə qazanıb. Bununla da Evren Alkayanın yetirmələri ardıcıl ikinci dəfə Avropa çempionu olub.

## Azərbaycan gimnastları beynəlxalq turnirdə 8 medal qazanıblar



Azərbaycan idmançıları Portuqaliyanın Santarem şəhərində keçirilən batut gimnastikası, ikili minibatut və tamblinq üzrə "Scalabis Cup" beynəlxalq turnirində 8 medal qazanıblar.

Bunlardan 6-sı qızıl, 1-i gümüş, 1-i bürünc mükafatdır.

Tamblinq üzrə yarışda Adil Hacızadə və Aleksey Karataşov qızıl, Tofiq Əliyev isə gümüş medal qazanıb. Tofiq Əliyev, Adil Hacızadə və Bilal Qurbanov komanda hesabında fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Batut və ikili minibatut gimnastikası üzrə hərəkətlərin icrasında Hüseyn Abbasov iki, Ammar Baxşalıyev bir qızıl, Nicat Mirzəyev isə bürünc mükafata yiyələniblər.

## Argentina millisi ardıcıl ikinci dəfə Amerika Kubokunun qalibi olub



Futbol üzrə Amerika Kubokunun qalibi müəyyənləşib.

Final oyununda Kolumbiya yığmasını 1:0 hesabı ilə məğlub edən Argentina millisi ardıcıl ikinci dəfə turnirdə çempion olub.

Matçın əsas vaxtı qolsuz heç-heçə ilə başa çatıb. "Tanqoçular"ın qələbə qoluna 112-ci dəqiqədə Lautaro Martines imza atıb.

Qeyd edək ki, UEFA və CONMEBOL arasındakı razılığa əsasən, Avropa çempionatı və Amerika Kubokunun qalibləri (müvafiq olaraq İspaniya və Argentina) Finalissimoda üz-üzə gələcəklər. Qarşılaşma 2025-ci ildə keçiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 441
Nüsxə 4650